# SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

AZ 1010, Bakı şəhəri, Üzeyir Hacıbəyov 62
Elektron poçtu: office@stm.az, Tel.: (012) 510 70 78

**№** 44 “26” Fevral **2021-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

İqtisadi inkişafın əsas determinantlarından biri kimi şəffaflığın və hesabatlılığın təmin edilməsi istiqamətində öz fəaliyyəti ilə daima fərqlənən Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə Sizi, palatanın idarəetmə heyətini və üzvlərini Sosial Tədqiqatlar Mərkəzinin kollektivi adından səmimi qəlbdən təbrik edirik!

Müstəqilliyimizin 30-cu ilində Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbə dövlət olaraq qarşımızda yeni çağırışlar yaratmaqla inkişafın yeni tsikli üçün daha mobil institusional həllər tələb edir. Məhz bu çərçivədə iqtisadi inkişaf üzrə strateji prioritetlərin reallaşdırılması istiqamətində milli audit sisteminin təşəkkülü, müstəqil auditor xidmətlərinin əhatə dairəsi və rolunun genişlənməsi müstəsna əhəmiyyət kəsb edir. İqtisadi suverenliyin möhkəmləndirilməsi, kölgə iqtisadiyyatının azaldılması, maliyyə intizamının gücləndirilməsi proseslərində öz yeri olan Auditorlar Palatasının 25 illik fəaliyyəti daima yüksələn xətt üzrə inkişaf etmişdir. Auditorlar Palatası sözügedən sahə üzrə beynəlxalq arenada da öz mövqeyini gücləndirməklə işini beynəlxalq standartlar çərçivəsində daima təkmilləşdirməyə köklənmişdir.

Şəffaflıq və hesabatlılığın dövlət idarəçiliyində müstəsna əhəmiyyətindən çıxış edərək Palatanın kollektivinə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin” reallaşdırılması və yeni iqtisadi idarəetmə modelində öz fəaliyyətləri ilə daim fərqlənəcəyini, böyük uğurlarınızı davam etdirəcəyinizə dərin inamımızı bildirir, bir daha Sizə xoş arzularımızı bildiririk.

Azərbaycan Respublikasının
Auditorlar Palatası
Daxil № 144
01. 03. 2021 il

**Hörmətlə,**

**Sosial Tədqiqatlar Mərkəzi**
**İdarə Heyətinin sədri** **Zahid Oruc**